# UNESCO-nun 43-cü sessiyası xalq sənəti növlərimizin də Dünya İrs Siyahısına salınma yollarını açdı...

## Ənvər Çingizoğlu: ”Belə bir festivalın keçirilməsi doğrudan da böyük əhəmiyyətə malikdir”

**Xalq sənəti növləri xalqların mədəniyyətinin əsas xəttini təşkil edir. Zəngin mədəniyyətə malik olan Azərbaycanda xalq sənəti tarixən inkişaf edib və müxtəlif sənət növləri sənətkarlar tərəfindən yaşadılıb. Bu gün Azərbaycanda dövlət səviyyəsində xalq sənətinin inkişafı və sənətkarların bu sənəti yaşatması üçün hər cür şərait yaradılır.**

Dünyada öz yeri olan Azərbaycanda tarixən mövcud olan xalq sənətinin bütün növlərinin yaşadılması, təbliğ edilməsi, gənclərə öyrədilməsi ənənəsi davam etdirilir. Bu günə kimi xalq sənətinin təbliği istiqamətində müxtəlif satış-sərgilər keçirilib. Bu da xalq sənətinin təbliğinə xidmət etməklə yanaşı, həm də bu sahə ilə məşğul olanlara stimulverici təsir göstərib.

İyulun 3-də Azərbaycanda ilk dəfə Respublika Sənətkarlıq Festivalı başlayıb. İyulun 7-də başa çatacaq festival UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində təşkil olunub.

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə baş tutan festivalda respublikamızın paytaxt və regionlarından olan sənətkarların iştirakının təmin olunması məqsədilə sənətkarlığın müxtəlif istiqamətləri ilə peşəkar səviyyədə məşğul olan ustalar dəvət edilib. Tədbir beynəlxalq təcrübə nəzərə alınaraq, insanların daha rahat gəlmələri üçün açıq səma altında, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının qarşısındakı meydanda, Nizami küçəsində təşkil edilir. Tədbir festival-yarmarka və karnaval formasında keçirilir.

Festivalın keçirilməsi üçün 40 müxtəlif formalı örtüklü, müasir tərtibatlı və hər birində 2-3 sənətkarın öz işlərini sərgiləyəcəyi stendlər quraşdırılıb. Tədbirdə Bakı və Sumqayıt şəhəri, habelə Abşeron yarımadasının digər yerlərində fəaliyyət göstərən təxminən 60 sənətkar, bölgələrdən 40-a yaxın sənətkar dəvət edilib.

Tədbirin keçirildiyi ərazidə informasiya-məlumat mərkəzləri yaradılıb. Festival ərəfəsində əl işlərinin marketinqi sahəsində müasir, innovativ üsulların istifadəsi, həmçinin, milli dəyərlərin yaşadılması istiqamətində mütəxəssislərin və sənətkarların iştirakı ilə konfrans keçirilib (Milli Kitabxanada). Festivalda gənc nəslə, ziyarətçilərə əl işləri sənətinin texnologiyasının öyrədilməsi, nümayiş etdirilməsi məqsədilə "master klub" qurulub və ustad dərsləri təşkil ediləcək. Yeni əl işləri sənəti nümunələrinin təqdim olunması və onlara dəstək göstərilməsi üçün "wall art" və "street art" üçün şərait yaradılıb.




## ”... erməni təxribatına verilən ən güclü cavabdır”

Festivalın cəlbediciliyinin artırılması üçün "şəhərcik" plan-quruluşundan istifadə edilir. Belə ki, uyğun və ya yaxın sənətkarlıq istiqamətləri eyni stenddə yerləşdirilir və bu stendlər simvolik olaraq sənətkarlıq kəndini, qəsəbə və məhəlləsini formalaşdıracaq. Beləliklə, festivalı ziyarət edən şəxslər "xalçaçılar kəndi", "dulusçular məhəlləsi", "misgərlər qəsəbəsi" və s. ilə tanış olmaq imkanı əldə ediblər.

Festival barədə kitabçalar və kataloqlar nəşr olunacaq, iştirakçılar diplomlarla təltif ediləcəklər. Festivalda uğurla iştirak edən, əl işlərinin keyfiyyəti və aktuallığı ilə seçilən sənətkarların xarici ölkələrdə keçirilən beynəlxalq sərgi-yarmarkalarda, habelə digər tədbirlərdə iştirakına köməklik göstərilməsi nəzərdə tutulur.

UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində təşkil olunan I Respublika Sənətkarlıq Festivalının əhəmiyyətini vurğulayan etnoqraf Ənvər Çingizoğlu "Bakı-Xəbər"ə bildirdi ki, bu festival Azərbaycanın sənətkarlıq irsinin təbliği baxımından çox əhəmiyyətlidir. Bu festivalın keçirilməsinin təsadüfi hal olmadığını deyən etnoqrafın sözlərinə görə, Azərbaycanın ənənəvi xalq sənəti növlərinin bu şəkildə təbliği bizə imkan verəcək ki, gələcəkdə onların müəyyən bir hissəsini UNESCO-nun müvafiq siyahılarına daxil edək. Kəlağayı, Lahıc misgərlik sənətləri kimi şedevrlərimizin UNESCO-da yer aldığını deyən Ə.Çingizoğlu qeyd etdi ki, Bakı sessiyasının gedişində I Sənətkarlıq Festivalının keçirilməsi ilə bağlı verilən qərar çox müsbətdir. Bu gün Azərbaycanda mövcud olan və özündə böyük tarixi dövrü əhatə edən xalq sənəti növlərinin dünya ictimaiyyəti üçün maraq kəsb etdiyini deyən Ə.Çingizoğlunun sözlərinə görə, Azərbaycan sənətkarlarının əl əməyi UNESCO rəsmilərinin və sessiya iştirakçılarının da diqqətini çəkəcək. "Bakı sessiyasının gedişində belə bir festivalın keçirilməsi doğrudan da böyük əhəmiyyətə malikdir. Bu, Azərbaycanın sahib olduğu qədim və zəngin, eyni zamanda, bənzərsiz mədəniyyətinin təqdim edilməsi deməkdir. Xalq sənətinin təqdimatı baxımından bu festival çox faydalı olacaq. Festivala gələnlər burada öz gözləri ilə müxtəlif xalq sənəti növlərinin necə yarandığının şahidi olacaqlar. Bilirsiniz, Azərbaycan xalqı yaradıcı xalq kimi tarixdə öz sözünü həmişə deyib, deməkdə də davam edir. Xalqımızın ələ qədim yaradıcılıq nümunələri, sənət növləri var ki, onların dünyada analoqu yoxdur. Bu sənət növləri o qədər rəngarəngdir ki, orada xalqımızın bütün ruhu, əhval-ruhiyyəsi, mənəviyyatı, məişət mədəniyyəti əksini tapıb. Xalqımızın dəyərli sənət növləri neçə min il bundan əvvəl yaranaraq formalaşmağa başlayıb. Bəşər sivilizasiyasının elə bir dövrü yoxdur ki, həmin çağa aid materiallardan sənət əsərləri yaradılmasın. Daş, tunc, mis və sair dövrlərdən başlayaraq Azərbaycan ustaları müxtəlif sənətkarlıq nümunələri ərsəyə gətiriblər. Təbii ki, bundan əvvəl daş mədəniyyəti dövrünün elementləri daş alətlərin hazırlanmasında, sənətkarlıq məmulatlarının meydana gəlməsində xüsusi rol oynayıb. Sonrakı mərhələlərdə sənətkarlıq daha da inkişaf edərək özünü çoxçeşidli sahələrdə büruzə verib. Azərbaycan bəşər sivilizasiyasının ilk ünvanlarından biri kimi çox böyük bir mədəni-mənəvi irsə malikdir. Bütün dünya onun bu möhtəşəmliyinə heyran kəsilib".

Ə.Çingizoğlu qeyd etdi ki, bu festivalda xalqımızın qədim sənət növləri olan misgərlik, dulusçuluq, ağac oyma, dəmirçilik, xalçaçılıq, ipəkçilik, toxuma, hörmə, sazbəndlik, şəbəkə, sərraclıq, papaqçılıq, həsirçilik, tikmə və s. nümayişi həqiqətən də maraqlıdır. O vurğuladı ki, bu gün, Bakı da daxil olmaqla, Azərbaycanın müxtəlif şəhər və rayonlarında sənətkarlıq mərkəzlərinin yenidən diqqət mərkəzinə gətirilməsi birbaşa dövlətin əməyi sahəsində baş verib. "Şəkidə ipəkçilik, milli mətbəx, İsmayıllıda misgərlik, başqa bir rayonda dulusçuluq, Tovuzda, Gəncədə, Qazaxda sazbəndlik, digər bir bölgəmizdə dəmirçilik, papaqçılıq inkişaf etdirilir. Bundan başqa, sənət növlərimiz də bu inkişafdan kənarda qalmır. Bu gün Azərbaycanın xalq sənətkarları, eyni zamanda, Bakıda fəaliyyət göstərirlər. Hazırda şəhərimizdə sazbənd emalatxanaları, zurna-balaban və digər nəfəs alətləri ustalarının sexləri, xalça sexləri, dulusçu, misgər və s. məkanları öz işini davam etdirir. Papaqçı dükanları da Bakının bir neçə yerində papaq həvəskarlarının ziyarət yerinə çevrilib. Bu gün bu sənətkarların iştirakı ilə festival keçirilirsə, bu o deməkdir ki, Azərbaycanın xalq sənətinin gələcəyi işıqlıdır. Düşünürəm ki, UNESCO-nun Ümumdünya İrs Komitəsinin Bakı sessiyası çərçivəsində I Respublika Sənətkarlıq Festivalının keçirilməsi bizə imkan verəcək ki, xalq sənəti növlərimizi bütövlükdə təqdim edək və daha çox xalq sənəti növümüzün UNESCO-ya daxil edilməsinə nail olaq. Bilirsiniz ki, bizim xalq sənəti növlərimizə iddia edənlər, hətta onları öz adlarına çıxanlar da var.

Bədnam qonşularımız bizim bir sıra xalq sənəti növlərini öz adlarına UNESCO-ya daxil etməyə çalışırlar. Balaban, saz kimi qədim musiqi alətlərimizin ermənilər tərəfindən təxribata məruz qaldığı məlumdur. Ancaq biz buna imkan verməməliyik.

Bu xalq sənəti növlərinin Azərbaycan xalqına məxsus olduğunu hər zaman bu cür festivallarla sübut etməliyik. Əlbəttə, bu festivalın keçirilməsi həm də erməni təxribatına verilən ən güclü cavabdır. Erməni təxribatının qarşısının alınmasında Mədəniyyət Nazirliyinin, xüsusən də Heydər Əliyev Fondunun rəhbəri, ölkəmizin Birinci vitse-prezidenti, UNESCO-nun ölkəmizdəki xoşməramlı səfiri Mehriban Əliyevanın çox mühüm xidmətləri var. Biz UNESCO-da ermənilərin bütün saxtakarlıqlarını ifşa edə bilərik" - deyə etnoqraf bildirdi.

***İradə SARIYEVA***